# Xoşbextliyin Yeri

*— Doktor-Yazar İlhamə Müslümova* · 18 Kasım 2024

İnsançün dünyanın ən gözəl yeri
Sevdiyi gözlərin qarasındadır…
Ən acı xatirə, ən ağır yaddaş
Ən çox sızıldayan yarasındadır….

Həyatda  ağlayıb gülməyən insan,
Dostluğun qədrini  bilməyən insan,
Sevgisi  yolunda ölməyən insan
Boşa  yaşayanlar  sırasındadır…

Dedilər, məhəbbət insana yarmış,
Sevgisiz bir dünya hər kəsə darmış…
Dedilər, dünyada xoşbəxtlik varmış,
Amma demədilər, harasındadır…

Viranə qoymusan gəlib, ürəyi….
Özünə yer etdin dəlib ürəyi….
Sənə vermişəmsə bölüb ürəyi,
Xoşbəxtlik səndəki parasındadır….

Sənə qarşı gəlmək deyil həddimə,
Bu eşqin dərdini danışım kimə?!
Mənim yaşamağa icazəm, demə,
İki dodağının arasındadır….

Bu eser **EdebiyatEvi.com** üzerinde yayımlanmıştır.

https://edebiyatevi.com/yazi/298412/xosbextliyin-yeri